

*Şövkət Zərin HOROVLU*

## NƏ VAXT, NƏ HƏVƏS

Yubanma, ay ömür, bir azca tələs,
Ta bizdə qalmayıb nə vaxt, nə həvəs.
Dünya bizim deyil
Yiyəlik edək,
Qoşulub köçünə
Gəl çıxıb gedək.
Gəlmişəm dünyaya mən də söz deyəm,
Onu yer sevgisi, göy eşqi biləm.
Ruhum da, deyəsən,
İnciyib məndən,
Bir məqam axtarır
Çıxa bədəndən.
Keçən hər günümüz yaşa yazılır,
Daha ünvanımız daşa yazılır.
Duyğular səngiyib,
Yalındı ürək,
Sahil yaxındadı,
Gəl çıxıb gedək.
Gedən qayıtmayıb, gələn qalmayıb,
Bu kəlamı bizə ərənlər qoyub.
Dünyaya nə verdik, nə alıb gedək,
Qalıb yaxasından
yapışaq bərk-bərk?!
Yaxınlar, doğmalar çəkilib bir-bir,
Çıraq öləziyir, ocaq da sönür.
Yükünü daşıyan
Dizim qalmayıb,
Dərdinə ağlayan gözüm qalmayıb.

Bir az söykənirəm sözə, qələmə,
Qələm də söz yükün
Çəkmir sən demə.
Sözüm əzəlkitək düzümə gəlmir,
Özüm küşüb gedib, özümə gəlmir.
Tanış bir hənirdən fikrim dağıldı,
Yəqin oğrun gələn
tənhalığımdı.
Yubanma, ay ömür, bir azca tələs,
Ta bizdə qalmayıb
nə vaxt, nə həvəs.

## BU DÜNYADAN QOVUN MƏNİ

İşğal günlərini saymağa
Canımda dözüm qalmayıb.
Dərdimə susan Tanrıya
Deməyə sözüm qalmayıb.
Mən bir qərib ruh kimiyəm,
Yaşamaq ar gəlir mənə,
Bu dünyadan qovun məni,
Bu qəfəs dar gəlir mənə.
Bir də doga anam da yox.
Qanadsız bir quş kimiyəm,
Min illik yuxu yatmışam,
Yenə də bihuş kimiyəm.
Neynirəm belə ömrü mən?!
Nə ölüyəm, nə də sağam,
Dərd çəkirəm misralara
Bir azca şairsayağam.
Göydə bulud, yerdə yağış
Selə-suya qarışıb get,
Dərd səni oynadır, Şövkət,
Dərdlərinlə barışıb get.

## BƏSİMDİ

Dünya, səndən çox olubmu diləyim,
Sellərə qərq olub hər cür istəyim.
Qəm yeməyə daha dözmür ürəyim,
Bircə dodaq gülüş versən, bəsimdi.

Dərdimizi, yetər, çəkdin zirvəyə,
Ümidləri saldın çənə-çisəyə.
Nədən durdun inadına, de niyə?
Dərdə bir az eniş versən, bəsimdi.

İnsaf eylə, duman dağdan sürüşsün,
Torpağımın sinəsinə gün düşsün.
Dədə çinar gəlib mənlə görüşsün,
Budağından öpüş versən, bəsimdi.

Demirəm ki, eşqı qaytar, sevgi ver,
Demirəm ki, sirrini aç, bilgi ver.
Yol gözləyir, anam məndən inciyər,
Son anımda görüş versən, bəsimdi.

İstəmirəm nə şöhrət, nə ad olsun,
Gedə-gedə yaxınlarım yad olsun.
Yol ver, cismin torpağıma qat olsun,
Doğma yurda dönüş versən, bəsimdi.

## VƏTƏN TƏRƏFİ

***Sərhədlərimizi qoruyan əsgərlərimizə***

Gecə yatdığımız rahat yuxular,
Sizlərin səngərdə sayıqlığıdır.
Sizə güvənirik, cəsur oğullar,
Hünəriniz bizə üzağlığıdır.

Qürur yerimizdi üçrəngli bayraq,
Sancıldığı yerə Vətəndi – deyir,
Torpağıma düşən hər bir şəhidin
Məzarı önündə başını əyir.

Zəfər gözləyirik nə vaxtdan bəri,
Əliniz əsməsin düşmən önündə.
And için şəhidin düşdüyü yerə,
Qana – qan, ölümə ölüm deyəndə.

Baxın, Lələtəpə qarşınızdadı,
Qisas qiyamətə, bilin ki, qalmaz.
Torpağımız indi paramparçadı,
Bölünən bir torpaq Vətən sayılmaz.

Qartal tək şığıyın, qarı düşmənin
Pozulsun alayı, qırılsın səfi.
Könlünü alın siz Xudafərinin,
Öyünsün yurdumun Vətən tərəfi.